# Azərbaycan dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilib



**_Bugünlərdə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə geniş tərkibdə görüşü, sonra Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu nüfuzlu qurumun ölkəmizlə əməkdaşlığı genişləndirməsindən xəbər verir. Daha bir fakt Avropa İttifaqının Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu təsdiqləyir. Xatırladaq ki, bu il iyulun 4-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı Brüssel gündəliyinə daxil edilmiş məsələlər müzakirə olunub. Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini vurğulayıb. O, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcəyini bildirib._**

Avropalı siyasətçinin dövlət başçımıza zəng vurması mühüm əhəmiyyət kəsb edir. Birincisi ona görə ki, Avropa İttifaqı Şurası nüfuzlu beynəlxalq qurumdur. İkincisi, bu telefon danışığı Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir. Digər mühüm fakt ölkəmizin dünya miqyasındakı nüfuzunun artmasının göstəricisidir. Göründüyü kimi, Cənubi Qafqazın problemləri Prezident İlham Əliyevlə müzakirə olunur, dövlətimizin başçısı ilə məsləhətləşirlər. Çünki Azərbaycan regionda bütün sahələrdə inkişaf etmiş dövlətdir. Ümumiyyətlə, son vaxtlar Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Ölkəmiz öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir.

Öz növbəsində, Avropa İttifaqı da respublikamızla münasibətlərin inkişafında maraqlı tərəf kimi çıxış edir. Bu gün Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə sahib olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən önəmli dividendlər vəd edir. Daha önəmlisi isə Azərbaycanın dünyada sayılıb-seçilən dövlətlər sırasına qoşulmasıdır.

ABŞ Prezidenti Cozef Baydenin qısa vaxt ərzində iki dəfə Prezident İlham Əliyevə təbrik məktubu ünvanlaması və hər iki məktubda Ağ Ev rəhbərinin ölkəmizlə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğu açıq şəkildə öznü büruzə verdi. Dövlət başçımız bu məsələləri bu ilin 6 ayının yekunlarına həsr olunmuş müşavirədəki nitqində də diqqətə çatdırdı. Bütövlükdə, ABŞ Prezidentinin məktubları iki ölkə arasında münasibətlərin yaxşı səviyyədə olmasından xəbər verir. Məktubda Azərbaycanın enerji resurslarının Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynaması, Azərbaycanın terrorizmə qarşı qlobal mübarizəyə verdiyi əhəmiyyətli töhfələrin təqdir edilməsi öz əksini tapıb. Eyni zamanda, ABŞ-ın Azərbaycan və Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinin bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcəyi qənaətində olması, bu anlamda ölkəmizin sülh təşəbbüslərini dəstəkləməsi, iqtisadi, nəqliyyat və insanlararası əlaqələrin qurulması istiqamətində gördüyü işlərə kömək etməyə hazır olması da bildirilidi. Həmçinin hazırkı dövrdə cərəyan edən proseslərin mürəkkəb xarakterini nəzərə almaqla, Amerikanın Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq etməsi öz əksini tapıb.

İstər ABŞ Prezidentinin məktubları, istərsə də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin telefon zəngi, eyni zamanda, Avropa İttifaqı Komissiyasının Prezidentinin ölkəmizə səfəri, Anlaşma Memorandumunun imzalanması, həmçinin dövlət başçımızın yüksək səviyyəli səfərləri, bu zaman digər dövlətlərin başçıları ilə aparılan təkbətək görüşlər, möhtərəm Prezidentimizin yütürdüyü düşünülmüş xarici siyasətin məntiqi nəticəsidir. Dövlət başçımızın bütün görüşlərində, imzalanmış sənədlərdə əsas məsələ milli maraqların və ərazi bütövlüyümüzün qorunması, habelə sülhün, təhlükəsizliyin təmin olunmasıdır. Şarl Mişellə telefon danışığı zamanı dedikləri də bundan xəbər verir.

Dövlət başçımız müşavirədəki nitqində ölkəmizin xarici siyasət sahəsində qazandığı uğurlardan da söhbət açıb. Cənab Prezidentin səsləndirdiyi faktlardan da bəlli olur ki, həmişə olduğu kimi, bu il də xarici siyasət istiqamətində yeni önəmli addımlar atılıb. Bu da ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu daha da artırıb. Məsələn, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi qurumun üzv dövlətlərinin diqqətindən yayınmadı. Bunun nəticəsi olaraq, quruma sədrliyimiz yekdil fikirlə 2023-cü ilə qədər – daha bir il də uzadılıb.

Dünya ictimaiyyətinin diqqəti yenidən ölkəmizə, Bakıda keçirilmiş Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılmasına yönəldi. Bakıda keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, bu hərəkatın həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün çox böyük potensialı var. Eyni zamanda, qurumun Gənclər Platforması da yaradılır. Nəzərdə tutulub ki, hərəkatın Gənclər forumu keçiriləcək və Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi yaradılacaq. Son illərdə Azərbaycanın beynəlxalq arenadakı rolu, səmərəli təşəbbüsləri irəli sürməsi, göstərdiyi həmrəylik və iqtisadi cəhətdən zəif olan dövlətlərə tərəfimizdən göstərilən humanitar və maliyyə dəstəyi, xüsusilə, COVID-19-la bağlı 80-dən çox ölkəyə kömək göstərilməsi ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı.

Ümumiyyətlə, Azərbaycan digər beynəlxalq təşkilatlarla da fəal əməkdaşlığı davam etdirir. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının yeni baş katibinin Azərbaycana səfəri zamanı işğaldan azad edilmiş torpaqlara – Füzuliyə və Şuşaya getməsi böyük hadisədir. Belə səfərlərin mühüm əhəmiyyəti var. Çünki azad edilmiş torpaqlara səfər edən hər bir insan, – istər Azərbaycan vətəndaşı olsun, istər xarici vətəndaş, – erməni vəhşiliyinin təzahürlərini öz gözü ilə görür.

Dövlət başçımızın bu il Türkiyə Prezidenti ilə üç dəfə görüşü, Qırğızıstan Prezidentinin Azərbaycana səfəri, eyni zamanda, Prezident İlham Əliyevin Özbəkistana və Türkmənistana səfərləri, Özbəkistan və Türkmənistanın dövlət başçıları, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri ilə görüşləri həm möhtərəm Prezidentimizin fəaliyyətinin zənginliyindən, həm də ölkəmizlə əməkdaşlığa maraqlı olan dövlətlərin sayının artmasından xəbər verir. Burada bir məqamı vurğulamaq yerinə düşərdi. Türk dövlətləri ilə əlaqələrimizi möhkəmləndirmək bizim üçün prioritet məsələlərdən biridir. Qarşılıqlı əməkdaşlıq zamanı həm ikitərəfli, həm də çoxtərəfli formatda siyasi dəstək ifadə olunur, önəmli layihələr üzərində müzakirələr aparılır. Qoy, dünya Türkün gücünü görsün, yerini bilsin!

Göründüyü kimi, möhtərəm Prezidentimizin əsas məqsədi sülh və təhlükəsizliyin və ərazi bütövlüyümüzün təmin olunması, əhalinin həyat tərzinin getdikcə yaxşılaşdırılması, doğma dədə-baba yurdlarından didərgin salınmış soydaşlarımızın təhlükəsiz şəraitdə isti ocaqlarına qayıtmalarıdır.

Son 19 ildə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi uğurlu xarici siyasət sayəsində Azərbaycanın diplomatik əlaqələri daha da genişləndirilib və bu sahədə yadda qalan uğurlar qazanılıb. Bu müddət ərzində Azərbaycan Prezidentinin səyləri nəticəsində ölkəmiz Ermənistanın və havadarlarının yaratdığı mifləri dağıdıb, informasiya müharibəsində üstünlük əldə etməyi bacarıb. BMT, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. aparıcı beynəlxalq qurumlarla sıx əməkdaşlıq, həmin təşkilatların öz tədbirlərini Azərbaycanda keçirmələrinə üstünlük vermələri ölkəmizə olan inamın bariz nümunəsidir. Bu, o deməkdir ki, Azərbaycan dünyada sabit ölkə kimi qəbul edilir.

Prezident İlham Əliyevin bütün beynəlxalq təmaslarda, ayrı-ayrı dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlərində, mötəbər tədbirlərdə Azərbaycanın mövqeyinin, tarixi və mövcud vəziyyət haqqında həqiqətlərin çatdırmasında əsas məqsədi ölkəmizin sülh tərəfdarı olduğunu bir daha bəyan etmək idi. Təəssüf ki, işğalçı Ermənistan bütün bunlardan ibrət götürmədi və ölkəmizə qarşı təxribatları davam etdirdi. Nəhayət, layiqli cavabını aldı. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin sərhədboyu ərazilərimizdə törətdikləri təxribatlar onlara baha başa gəldi. İşğalçılar qarşılarında güclü, qüvvətli Azərbaycan Ordusunu gördülər və cəmi 44 gün ərzində darmadağın edildilər. Düşmən üzərində qazandığımız tarixi Qələbə ölkəmizin dünya miqyasındakı reytinqini daha da yüksəltdi.

Dövlət başçımız Ermənistanın başladığı müharibə ilə bağlı həqiqəti əks etdirən mənzərəni dünya ictimaiyyətinə çatdırmaqla, həm də informasiya müharibəsində tarixi Qələbə qazandı. Qırx dörd günlük müharibə dövründə Prezident İlham Əliyevin dünyanın 30-a yaxın aparıcı media orqanına verdiyi müsahibələr beynəlxalq informasiya məkanında ölkəmizin mövqeyini gücləndirdi, erməni yalanlarının ifşa edilməsində önəmli rol oynadı.

Ermənistan üzərində qazandığımız şanlı Qələbədən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma, abadlıq-bərpa işlərinə başlanılması respublikamızın həm də iqtisadi gücünün göstəricisidir. Qısa müddət ərzində həmin ərazilərdə görülən işlər dünya ictimaiyyətini də heyrətləndirib. Müharibənin başa çatmasından ötən 1 il 8 ay ərzində bütün sahələr üzrə yüksək səviyyəli işlər görmək çox çətin idi. Lakin Azərbaycan bu sınaqdan da alnıaçıq, üzüağ çıxır. Artıq həmin ərazilərə Böyük Qayıdışın ilk addımı atıldı. 29 illik həsrətdən sonra Zəngilan rayonunun Ağalı kəndi ilk sakinlərini qəbul etdi. Bu, doğrudan da, tarixi hadisədir. Əsas odur ki, həmin ərazilərdə aparılan bütün tikinti-bərpa işləri Azərbaycanın öz vəsaiti hesabına həyata keçirilir. Bu işlərdə dünyanın müxtəlif ölkələrinin şirkətlərinin də iştirakı Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun göstəricisidir. Ümumiyyətlə, şanlı Qələbəmizdən sonra dövlət başçımıza göndərilən təbrik teleqramları, Bakıda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə mötəbər qurumların bir-birinin ardınca öz tədbirlərini təşkil etməsi, eyni zamanda, beynəlxalq miqyaslı idman yarışlarının keçirilməsi ölkəmizin sabitlik məkanı olmasından xəbər verir.

Son bir neçə ayda Bakıda, Şuşada və Şərqi Zəngəzurda keçirilən beynəlxalq miqyaslı tədbirlər Azərbaycanın həm siyasi, həm də iqtisadi qüdrətinin artdığından xəbər verir. Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və sərgidə 30 müxtəlif ölkəni təmsil edən 249 şirkətin iştirakı Bakının region üçün əhəmiyyəti artmaqda olan tədbirlərin keçirildiyi mərkəzə çevrildiyini bir daha təsdiqlədi. Tədbir iştirakçıları bildirdilər ki, Azərbaycan koronavirusa qarşı mübarizədə çox ayıq-sayıq olmuşdur və nəticə etibarilə hazırda əhalinin peyvəndlənməsi baxımından aparıcı ölkələrdən biri kimi çıxış edir.

Qeyd edək ki, Bakı təkcə regionda ən böyük olan bu sənaye tədbirinə evsahibliyi etmir. Ardınca "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalının keçirilməsi, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda ilk dəfə keçirilən bu tədbirdə birgə iştirakı beynəlxalq aləmdə geniş əks-səda doğurdu.

Prezidenti İlham Əliyevin mayın 31-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul etməsi və Cənub Qaz Dəhlizinin fəaliyyətindən, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və qazla təmin olunmasının şaxələndirilməsində rolundan və ölkəmizdən Avropaya qaz ixracının artırılması ilə bağlı fikir mübadiləsi aparması da xüsusi qeyd edilməlidir. Çünki bu görüş də çox önəmli məsələ müzakirə mövzusu oldu.

Göründüyü kimi, postmüharibə dövründə ölkəmizin əlaqələri daha da genişləndirilib, mövqeyi möhkəmləndirilib. Əsas güc mərkəzləri ilə, eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlarla çox böyük işlər görülüb. Dövlət başçımızın vurğuladığı kimi, son illərin tarixçəsinə nəzər salsaq, Azərbaycanın hər istiqamət üzrə irəlilədiyinin şahidi olarıq: "Bizim mövqeyimiz hər zaman müstəqil mövqe olub, biz hər zaman öz mövqeyimizi açıq nümayiş etdirmişik, o cümlədən buna görə dünyada böyük hörmət qazanmışıq. Həmişə sözümüzdə dururuq, həmişə verilən sözə sadiqik".

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***